XalqBank
UĞURLA BİRLİKDƏYİK!

# BANKA TƏQDİM EDİLƏN SƏNƏDLƏRİN SİYAHISI

**1) Fərdi sahibkar olan Borcalan/Zamin tərəfindən təqdim edilən sənədlər:**

1. Şəxsiyyəti təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd;
2. Borcalanın Bank tərəfindən təsdiq edilmiş formada kredit sifarişi;
3. Dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti
4. ilə son 2 rüb üzrə vergi bəyannaməsi;
5. 18 yaşından 26 yaşınadək olan kişi vətəndaşlar üçün hərbi xidmətin keçməsinə, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsinə və ya çağırışdan azad edilməsinə dair müvafiq sənəd.

**2) Hüquqi şəxs olan Borcalan/Zamin tərəfindən təqdim edilən sənədlər:**

1. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə;
2. Hüquqi şəxsin nizamnaməsi;
3. **Son 12 ay ərzində digər banklarda açılmış cari hesablarında olan pul vəsaitlərinin dövriyyəsi haqqında müvafiq bank tərəfindən təsdiqlənmiş çıxarış** Kreditin götürülməsinə ,Borcalana zaminliyin təqdim edilməsinə və hüquqi şəxsin nümayəndəsinə Kredit/zaminlik müqaviləsinin bağlanması səlahiyyətlərinin verilməsinə dair qərarların qəbul edilməsi haqqında hüquqi şəxsin ali idarəetmə orqanının iclasının protokolu (həmin səlahiyyətlərin hüquqi şəxsin digər idarəetmə orqanına məxsus olduğu təsis sənədlərində (nizamnaməsində) nəzərdə tutulmadığı hallarda);
4. Borcalanın son hesabat ili üzrə vergi bəyannaməsi (və ya bəyannamələri), şəxsi hesab vərəqəsindən çıxarış, vergi borcu barəsində arayış (yeni fəaliyyətə başlayanlar istisna olmaqla), ƏDV ödəyicisi olduqda son 6 ay üzrə ƏDV bəyannamələri;
5. Son 12 ay ərzində Maliyyə hesabatları (Balans, MZH və Pul axını hesabatı).

**3) Fiziki şəxs olan Zamin tərəfindən təqdim edilən sənədlər:**

1. Şəxsiyyəti təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd);
2. Gəlirlər haqqında arayış: ASC "Xalq"Bankında "Fiziki şəxslərin maliyyə vəziyyətinin qiymətləndirilməsi haqqında Qaydalar"ın 2.1 bəndində qeyd olunmuş sənədlər;
3. 18 yaşından 26 yaşınadək olan kişi vətəndaşlar üçün hərbi xidmətin keçməsinə, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsinə və ya çağırışdan azad edilməsinə dair müvafiq sənəd.

**4) Fiziki şəxs olan İpoteka qoyan tərəfindən təqdim edilən təminat üzrə sənədlər:**

1. Daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənəd / ARDYP tərəfindən verilmiş avtonəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi;
2. İpoteka qoyanın yaşayış yeri (ipoteka qoyulan əmlakın yerləşdiyi ərazi) üzrə müvafiq dövlət orqanından (MİS-dən (Mənzil İstismar Sahəsi), yerli İcra nümayəndəliyindən və s.) ailə tərkibi (yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər) haqqında Arayış (Forma № 2);
3. Daşınmaz əmlakın ipoteka qoyulmasına İpoteka qoyanın ərinin/arvadının razılığı, həmçinin əmlakın digər birgə mülkiyyətçilərinin və yaşayış təyinatlı daşınmaz əmlakda qeydiyyatda olan şəxslərin razılığı / nəqliyyat vasitəsinin ipoteka qoyulmasına İpoteka qoyanın ərinin/arvadının razılığı;
4. <u>Bankla zəruri müqavilələrin imzalanmasından sonra və Borcalana kreditin verilməsindən əvvəl:</u> əmlakın Bankda ipotekada olması barədə Daşınmaz əmlakın Dövlət reyestrinə qeydin daxil edilməsinə görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd / ARDYP tərəfindən verilmiş nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi (avtonəqliyyat vasitəsinin Bankda ipotekada olmasına dair qeydlə).

**5) Hüquqi şəxs olan İpoteka qoyan tərəfindən təqdim edilən təminat üzrə sənədlər:**

1. Daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənəd / ARDYP tərəfindən verilmiş avtonəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi;
2. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə (İpoteka qoyan qismində Borcalanın çıxış etdiyi hallar istisna olmaqla);
3. Hüquqi şəxsin nizamnaməsi (İpoteka qoyan qismində Borcalanın çıxış etdiyi hallar istisna olmaqla);
4. Daşınmaz əmlakın ipotekaya qoyulmasına və hüquqi şəxsin nümayəndəsinə ipoteka müqaviləsinin bağlanması səlahiyyətlərinin verilməsinə dair qərarların qəbul edilməsi haqqında hüquqi şəxsin ali idarəetmə orqanının iclasının protokolu (həmin səlahiyyətlərin hüquqi şəxsin digər idarəetmə orqanına məxsus olduğu təsis sənədlərində (nizamnaməsində) nəzərdə tutulmadığı hallarda) Bankla zəruri müqavilələrin imzalanmasından sonra və Borcalana kreditin verilməsindən əvvəl: əmlakın Bankda ipotekada olması barədə Daşınmaz əmlakın Dövlət reyestrinə qeydin daxil edilməsinə görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd / ARDYP tərəfindən verilmiş nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi (avtonəqliyyat vasitəsinin Bankda ipotekada olmasına dair qeydlə).

**6) Zərurət olduqda Bankın tələbi ilə digər sənədlərdə təqdim olunmalıdır, o cümlədən:**

1. Borcalanın ailə üzvlərinin gəlirləri haqqında arayışlar;
2. Borcalanın ailə vəziyyəti haqqında VVADQ (Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı) orqanından arayış;
3. Borcalanın yaşayış yeri üzrə Müvafiq dövlət orqanlarından (MİS-dən (Mənzil İstismar Sahəsi), yerli icra nümayəndəliklərindən və s.) ailə tərkibi haqqında arayış (Forma № 2).
4. Hüquqi şəxslər üçün – cari tarixə Hüquqi Şəxslərin Dövlət Reyestrindən çıxarış.

***Qeyd.***

*Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə digər qayda nəzərdə tutulmayıbsa, gəlirlər haqqında arayışlar verildiyi tarixdən yalnız 30 təqvim günü ərzində Banka təqdim oluna bilər.*